deceuninck

starwood

MOTTURA

PB FINESTRE
WINDOWS AND DOORS

GEZE

REYNAERS aluminium

DORMA

Ünvan: İsmayıl bəy Qutqaşınlı k. 30,
Bakı, Azərbaycan
Sayt: www.glassconstruction.az
email: info@glassconstruction.az
Tel: +994 12 537 16 46
Mob: +994 50 620 30 10

GLASS CONSTRUCTION

# GLASS CONSTRUCTION

“Glass Construction MMC” ilk dəfə 2007-ci ildən Azərbaycanda ən müasir şüşə və şüşələnmə sistemlərini təklif edən etibarlı tərəfdaş kimi yerli bazarda təmsil olunmağa başlamışdır. Texnologiyanın inkişafı və müştərilərin artan tələbatları fonunda günün tələbi olan eyvan-şüşəbənd sistemlərini ənənəvi üsullardan daha fərqli, müasir və rahat formada dəyərli müştərilərinə təklif edir.

Bu gün GC öz brend portfelinə dünyanın bir çox aparıcı istehsalçılarının məhsullarını daxil edərək texnoloji inkişafın bəxş etdiyi innovasiyaları yerli bazarda tətbiq edir. Bu brendlərə dünyaca məşhur Deceuninck (Belçika), Mottura, Zanzar (İtaliya), Solarlux (Almaniya), Reynaers (Belçika) aid etmək olar. 2014-cü ildə GC dünyanın 105 ölkəsində diler şəbəkəsi və şourumlara sahib olan, bütün ekoloji-sağlamlıq standartlarına cavab verən dünyaca məşhur “Deceuninck” profillərinin istehsalçısı Belçika şirkəti Deceuninck n.v. və pərdə-jalüz sistemlərinin innovativ mexanizmlərinin istehsalçısı Mottura S.p.A. ilə Azərbaycanda rəsmi distributorluq müqaviləsi imzalamışdır.

Əsas hədəfimiz sürətlə inkişaf edən texnologiyanın verdiyi imkanlardan yararlanaraq ərsəyə gəlmiş məhsul və xidmətləri ilk öncə dərindən mənimsəmək, sonra isə Azərbaycanda həmin məhsul və xidmətlərdən istifadə etmək üçün istehlakçılarımıza daha əlverişli imkanlar yaratmaqdır.




1 Alüminium İzosistem
2 Taxta Pəncərələr
3 Taxta - Alüminium Pəncərələr
4 PVC (plastik) Sistemlər
5 Ağcaqanad Torları
6 Cəphə Fasad Sistemləri
7 Şüşə Tavanlar
8 Qış Bağçaları
9 Mottura Karniz Jalüz Sistemləri
10 Tent Sistemləri
11 Ofis Arakəsmələri
12 Şüşə Arakəsmələr
13 CamBalkon
14 Duş Kabinlər
15 Şüşə Qapılar
16 Şüşə Məhəccər
17 Ağıllı Tavan sistemi (SmartRoof)
18 Paket Cambalkon
19 Hebeschiebe Sürmə sistemi
20 Giyotin Pəncərə

Alüminium izosistemlər iki alüminium profildən və onlar arasında yerləşən plastik körpüdən ibarətdir. Bu plastik körpü özünə məxsus bir maneə rolunu oynayır və bayırdan içəriyə soyuğu, içəridən bayıra isə istini buraxmır. Səs izolyasiyasının da öhdəsindən ideal olaraq gəlir. Plastik körpü, həmçinin kənar səslərin içəriyə daxil olmasının və tərləmənin də qarşısını alır. Bu panoram şüşələmə, evlər, villalar və qış baxçaları üçün ideal bir variantdır.

Profillərin rəng seçimi genişdir, məkana və sizin zövqünüzə görə dəyişmək mümkündür. Bu profillər daimi qulluq tələb etmir və uzunmüddətli istismara malikdirlər. Müxtəlif qapı, pəncərə, sürmə , qatlanan qapılar kimi sistemləri özündə cəmləşdirir.











# Alüminium İzosistem







Təbiətin təravətini evinizdə hiss edə biləcəyiniz Palıd, Meranti, Şam ağaclarından, dünyanın dizayn və dəb mərkəzi sayılan İtaliyada ən yüksək texnoloji üsullarla hazırlanmış qapı, pəncərə, bir neçə növdə sürmə sistemlər, qatlanan qapılar, kəpənk sistemləri ilə yaşayış yerlərinizdə sağlam həyat yaratmış olacaqsınız. Xüsusilə də rütubətin çox aşağı düşməsinə nail ola bilərsiniz. Glass Construction olaraq İtaliyadan sizin tələbatlarınızı qarşılamaq məqsədilə Starwood, PB Finestre kimi brendlərin taxta və taxta-aluminium pəncərə sistemlərini təqdim etməkdən qürur duyuruq.







# Taxta Pəncərələr







Taxta-Aluminium Profillərin çöl tərəfinə yerləşdirilmiş aluminium istənilən hava şəraitinə qarşı dayanıqlıdır. İç tərəfdən taxta profilin quraşdırılması isə rütubətin qarşısını alır və sağlamlığınızın qorunmasını təmin etmiş olur. Taxtaların rəng çeşidinin çox olması interyerinizi tamamlayır. Taxta-aluminium profillərdən hazırlanmış pəncərələr məkanlara rahatlıq və komfort gətirir.

# Taxta Alüminium Pəncərələr

Belçika istehsalı olan Deceuninck PVC sistemləri, ekoloji-sağlamlıq standartlarına cavab verir. İzolyasiya anlayışı ön planda tutulub (üçlü izolyasiya), yüksək ətalət dəyərinə sahib dəstək sacı istifadə olunur. Qapı, pəncərə, pivot, qalxma-sürmə, paralel sürmə, qatlanan qapı, panjur, kəpənk kimi müxtəlif məkanlara uyğun sistemləri mövcuddur.

Mükəmməl Həyatın Pəncərəsi Deceuninck keyfiyyəti ilə yanaşı, digər istehsalçılardan rəng çeşidlərinin çoxluğu ilə də fərqlənir.







# **Deceuninck** Ekoloji Sağlam Pəncərələr









Klip 40,  Plisse,  America,  Rond,  Girasole adlandırılan , vertikal və horizontal ola bilən ağcaqanad torları hər növ qapı, pəncərə və sürmə sistemlərə  uyğundur.

İnnovativ dizayna uyğun yaradılan aksesuarlar sistemlərin bu günümüzün tələbatına tam cavab verməsinə zəmanət verir.





# Ağcaqanad torları



Cəphə-fasad sistemlərinin klassik fasad sistemlərindən əsas fərqliliyi daha yüngül, funksional olması, qısa müddətdə quraşdırıla bilməsi, estetik olaraq gözəl görünməsi, gec çirklənməsi və asan təmizlənməsidir.
Bu sistemlər, binalara gözəl bir görünüş qazandırmaqla yanaşı, istilik və səs izolyasiyası ilə də təmin edir.
Binanın arxitektur quruluşuna, istifadə məqsədinə və ya sizin istəyinizə görə qapaqlı, yarı qapaqlı, kasetli, silikonlu, transparan cəphə-fasad sistemləri quraşdırılması mümkündür.









Şüşə tavanlar kafe, restoran, qış bağçası, hovuz, terras, ticarət mərkəzi və s. kimi məkanların üzərini bağlamaq üçün nəzərdə tutulan sistemlərdir. Konstruksiyası alüminium və metal profillərdən ibarətdir. Şüşə tavanlar istəyə görə temperli, lamina, paket şüşə və ya polikarbonatdan quraşdırıla bilər. Şüşələr sadə və ya xüsusi (günəş işığını yüksək dərəcədə əks etdirmə və istiliyi az keçimə xüsusiyyəti olan) formada təklif olunur. Şüşə və profillərin rəng seçimlərinin olması da məkanın arxitektur quruluşunun və dekorasiyasının saxlanmasında müsbət rol oynayır. Sabit, motorlu və pultla idarə edilə bilir, 100% su keçirmir.



# Şüşə Tavan



Qış bağçaları evinizin həyətində, kafe və restoranlarda hər tərəfi şüşə ilə bağlanmış sistemlərdir. Şüşə ilə olan qış bağçalarının əsas özəlliyi bütün fəsillərin gözəlliyini görə bilmənizdir. İstədiyiniz zaman şüşələri açıb, açıq havada otura bilərsiniz. Qış bağçalarının dam hissəsini açılan tent, açılan şüşə tavan və ya sabit şüşə tavan edə bilərik. Yanları isə tam açılan şüşəbəndlərlə bağlanır (cambalkon, qatlanan qapılar, sürgülü sistemlər və s).









# Qış bağçaları










Motturada S.p.A. İtaliya brendi olub, 1963-cü ildən fəaliyyət göstərməkdədir. Avropa, Asiya və Afrikanın bir çox ölkələrində satış mərkəzləri olan Mottura S.p.A-nın 2014-cü ildən Azərbaycanda rəsmi nümayəndəsi "Glass Construction"dır. İnnovativ texnologiyaların köməyi ilə həyatımızı daha da asanlaşdıran brendin 4 metrdən başlayan ölçüdə, 90-180 dərəcəyə qədər əyilməsi mümkün olan, 3, 4 və 5 kanallı, klassika, neoklassika, modern, avanqard, barokko və sair stillərdə interyerlərin dizaynını tamamlayan karnizləri vardır.

Həmçinin iç və çöl məkanlar üçün uyğun çox çeşidli və funksional roll sistemləri, Roma pərdələri, səhnə pərdələri, müxtəlif dərəcəli əyri tavanlar və yan şüşələr üçün 11 çeşidi olan Garden pərdə sistemlərini özündə cəmləyir. Sistemlərdə idarə etmə pultla, motorla, zəncirlə və çubuqla mümkündür.

Pultla idarə olunan pərdə sistemləri hər bir ölçüdə pəncərə və səhnələr üçün mümkündür. 1 saniyədə 24 sm sürətlə hərəkət edən sistemlər 255 kq çəki götürmə qabiliyyətinə malikdir.



# **Mottura Pərdə** Jalüz Sistemləri







Tent sistemləri eyvanlar, verandalar, qış bağçaları, kafe, restoran və s. məkanlar üçün nəzərdə tutulmuşdur.

Pultla idarə olunaraq açılan bu sistemlərin köməyi ilə məkandan hər mövsümdə istifadə edə biləcəksiniz.

Müxtəlif ölçülərdə və rənglərdə olan bu sistemlərdə istənildiyi təqdirdə led işıqlandırma da quraşdırıla bilər.



# **Tent** Sistemləri

# Ofis Arakəsmələri



Ofis arakəsmələri müasir ofislərdə strukturlaşmanın vacib xüsusiyyətlərindən biri sayılır. Çünki, ofislərdə personalın iş effektivliyinin yüksək olması onların sərbəst işləmək imkanlarının olmasından çox asılıdır. Ofislərin şüşə arakəsmələrlə ayrılması estetik görünüşün gözəl olması ilə bərabər həm də, iş yerinə xüsusi prestij qazandırır. Bu növ arakəsmələrin üstünlüklərindən bir digəri isə asan, qısa müddətə və daha az xərclə quraşdırıla və ya sökülə bilməsidir.

















Arakəsmələr sadə dizayn seçimləri üçün nəzərdə tutulsa belə, texniki üstünlükləri çoxdur və sürgülü qapılar kolleksiyasının davamıdır. Profillərin seçimi isə tələb olunan ölçülərə görə dəyişə bilər. Bir neçə açılma üsulu mümkündür: adi açılıb bağlanan qapılar, sürgülü qapılar və xüsusi bir sistem. Bu sistemdə bir qanadın uzunluğunu 180 sm hündürlüyünü isə 300 sm ölçüdə etmək mümkündür.







# Şüşə Arakəsmələr







# CamBalkon



Cambalkon - Çərçivəsiz, tam açılaraq yanlara yığılan şüşəbənd sistemləridir. Bu sistemlər evinizdə funksional və estetik bir balkon yaratmağın ən müasir üsuludur. Cambalkon sizə məkanı istədiyiniz zaman tamam, qismən bağlamaq, və ya bütünlüklə açmaq, ya da küləyi istiqamətləndirmək kimi fərqli imkanlar verir. Istifadə olunan şüşələrin zərbəyə davamlı (temperli) olması, təhlükəsizliyinizi təmin edir. Ən önəmlisi isə sizi ətraf mühitin mənfi təsirlərindən qoruyur.







İndividual istək və tələbatlarınıza uyğun daha konfortlu duş qəbul etmənizə imkan verən və eyni zamanda gigiyena normalarının qorunmasını təmin edən müasir duş kabin sistemlərini təklif edirik.

Hamam otağınızda yığacağımız müxtəlif ölçülərə uyğun, müxtəlif şüşə növləri ilə vanna üzərinə və ya yerdən duş kabinlər sizin zövqünüzü oxşayacaqdır. Duş kabinlərimiz Seçdiyiniz sistemdən asılı olaraq su sıçrayışlarının qarşısını 90-100% alır.

Duş kabinlərin hazırlanmasında temperli (zərbəyə davamlı) şüşə və ya polistren material istifadə olunur ki, bu da sizin və ailənizin sağlamlığının təhlükə altında qalmasının qarşısını alır.



# Duş Kabinlər







Şüşə qapıları ev, ofis, ticarət mərkəzi və s istənilən növ məkanda istifadə etmək olar. Qapılar petləli, motorlu, sürgülü və fotoselli (radarlı) ola bilər.

Ölçüdən və istifadə məqsədindən asılı olaraq əsasən 8 mm və 10 mm qalınlığında temperli şüşələr istifadə olunur. Profil və aksesuarlar Almaniya, Danimarka və Türkiyə istehsalıdır. Şüşələrin rəng seçimləri vardır, bundan başqa istədiyiniz hər hansı dekorların da şüşə üzərinə həkk olunması mümkündür.





# Şüşə qapılar





Evlərinizdə eyvanlarınızın qarşısını ən son dəblə ayaqlaşan, sınmaya davamlı, erqonomik dizaynı ilə diqqət çəkən şüşə məhəccərlərlə sərhədləyə bilərik. Bu sistemlər, məkanın istifadəsini asanlaşdırmaqla bərabər, ümumi dizayn harmoniyasını da tamamlamış olacaq. Şüşə məhəccərləri həm də hovuzların kənarında, daxili pilləkənlərdə, ticarət mərkəzlərində quraşdırmaq mümkündür.

# Şüşə Məhəccər



Ağıllı tavan sistemlərini (Smart Roof) tək düymə ilə açıb-bağlaya, yaxud da işıq və havalandırma üçün panelləri sadəcə aralı saxlaya bilərsiz. Sistemin konstruksiyası və panelləri alüminiumdan hazırlanır, panelləri relsə birləşdirən hərəkətli makaslar isə paslanmaz metaldandır.

İstilik və səs izolasyasını təmin etmək üçün alüminium panellərin içərisi poliuretan ilə doldurula da bilir. Həmçinin hər növ işıqlandırma və isitmə sistemlərinin bu sistemə quraşdırılmasına imkan var.

Pult ilə idarə edilir, Somfy marka motor istifadə olunur. Xüsusilə restoran və kafelər üçün əvəzedilməz bir sistemdir.

Rəng seçimlərinin çoxluğu isə məkana zərif cizgilər verməkdə, səmimi abu-hava yaratmaqda sizə kömək edəcək.







# Ağıllı tavan sistemləri



Bu cambalkon sistemi eyvan, qış bağçası, veranda, terras, kafe ve restoranlar və s. məkanların bağlanması üçün istifadə olunur. İstənildiyi zaman tamamən açılıb-bağlana bilir.

Digər cambalkon sistemlərindən fərqli olaraq hava, su və külək keçirmir. Sistemdə 28 mm qalınlığında paket şüşə istifadə olunur. Şüşə panellərin birləşmələrində izolyasiya üçün EPDM rezin və maqnit istifadə olunur. Bu da təkqat şüşə ilə olan digər cambalkonlarla müqayisədə 5 qat artıq enerji qənaəti deməkdir. İstəyə görə şüşələrin arasına jalüz də quraşdırıla bilər. Sistemin əsas üstünlüklərindən biri də təkərlərin bütün komponentlərinin paslanmaz metaldan olmasıdır.

Səssiz hərəktini təmin etmək üçün polyamid örtük ilə üzlənmişdir. 90 dərəcə, L və U şəklindəki eyvanlarda da tətbiq olunması mümkündür. Paket cambalkon ilə məkanlarınızı dörd mövsüm yaşanacaq yer halına gətirə bilərsiniz.









# Paket Cambalkon







Geniş bir görüş bucağı təmin edərək, terras, balkon və bağçalarınıza açılan qapıları mənzərənizi bölmədən xarici dünya ilə birləşdirə bilər, məkanlarınıza dəyər qataraq tək bir dəyişiklik ilə heç çətinlik çəkmədən açıb-bağlaya bilərsiniz. Hebeschiebe Sürmə Sisteminin dizaynında, həm profillərdə həm də detallarda izolyasiya anlayışı ön planda tutulmuşdur. Qanadlarda yüksək ətalət dəyərinə sahib dəstək sacının olması , eləcə də xüsusi rezinlərin istifadə olunması sistemə mükəmməl izolyasiya qazandırır. Evinizin dizaynına uyğun rəngi tapmaqda  da heç çətinliyiniz olmayacaq.



# Hebeschiebe Sürmə sistemi

Giyotin vertikal hərəkət edən bir və ya bir neçə hərəkətli şüşə paneldən ibarət pəncərə sistemidir.

Sadə alüminium və ya izosistem alüminium profil olaraq, təkqat və ya ikiqat şüşə ilə hazırlanması mümkündür. Daşıyıcı mexanizm qanadları istənilən yerdə dayandırmaq imkanı verir.

Bu xüsusiyyət həm də pəncərənin daha təhlükəsiz açılıb-bağlanmasında böyük rol oynayır.

Pult vasitəsilə idarə oluna bilər, vasistas açılımın olması təmizlənməsini çox asanlaşdırır, təhlükəsizlik sensoru ilə təchiz oluna bilməsi isə uşaqlarınızın təhlükəsizliyini təmin etmiş olur.

Xüsusilə dar məkanlar üçün əvəzedilməz bir sistemdir.

Çox çeşidli rəng seçiminin olması həm tarixi, həm də modern arxitektur quruluşlu binalara tətbiqini mümkün edir.

